**Vergi Məcəlləsində edilmiş dəyişikliyə əsasən, 01.01.2024-cü il tarixdən etibarən**

Mikro sahibkarlıq subyektlərinin fəaliyyətinin davamlılığını təmin etmək və onların sosial sığorta yükünün dövlət büdcəsi vəsaiti hesabına kompensasiya edilməsi məqsədilə onların özlərinə görə ödədiyi sosial sığorta haqqı məbləğinin **25 faizi 2024-cü il yanvarın 1-dən 3 il müddətinə** dövlət büdcəsinə ödənilməli olan **gəlir vergisi və sadələşdirilmiş vergi məbləğindən** (həmin öhdəliklərin məbləğindən çox olmamaqla) çıxılır.

**Dövlət büdcəsinə ödənilməli olan vergilər barədə ətraflı məlumatla www.taxes.gov.az internet saytında tanış ola bilərsiniz.**

BAKI — 2024

DÖVLƏT VERGİ XİDMƏTİ

# Mikro sahibkarların nəzərinə!

**Vergi Məcəlləsində edilmiş dəyişikliyə əsasən, 01.01.2024-cü il tarixdən etibarən**

Müvafiq il üzrə orta aylıq muzdlu işçi sayı 3 nəfərdən az olmayan və məcburi dövlət sosial sığorta haqları üzrə borcu olmayan mikro sahibkarlıq subyektlərinin sahibkarlıq fəaliyyətindən əldə etdikləri gəlirlərin (mənfəətin) **75 faizi** gəlir (mənfəət) vergisindən azad edilmişdir.

- Müvafiq il üzrə orta aylıq muzdlu işçi sayı təqvim ili ərzində muzdlu işçilərin sayının cəmlənərək 12-yə bölünməsi yolu ilə müəyyən edilir;
- vergi ödəyicisi tərəfindən əmtəəsiz əməliyyatlar aparıldığı halda göstərilən vergi güzəşti əmtəəsiz əməliyyatlardan yaranan gəlirlərə münasibətdə tətbiq edilmir.

195

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

www.taxes.gov.az

Vergi ödəyicisi vergi güzəştinin tətbiqi məqsədilə yuxarıda göstərilən şərtlərə cavab vermədikdə və növbəti hesabat ilində mikro sahibkarlıq subyektindən digər kateqoriya sahibkarlıq subyektinə keçdikdə fərdi sahibkarın və hüquqi şəxsin mikro sahibkar olduğu əvvəlki 3 təqvim ilinin yekunlarına görə hesablanmış və ödənilmiş gəlir (mənfəət) vergisinin 75 faizi həcmində vergi güzəşti müəyyən edilməklə digər sahibkarlıq subyekti olduğu dövrlərdə gəlir (mənfəət) vergisi öhdəliyindən çıxılır.

**Nə dəyişdi?**

01.01.2024-cü il tarixədək qüvvədə olan qanunvericiliyə əsasən, mikro sahibkarlıq subyektlərinə gəlir (mənfəət) vergisi üzrə **75 faiz** həcmində güzəştin tətbiqi məqsədilə yeganə şərt kimi gəlirlərin və xərclərin uçotunun aparılması müəyyən edilmişdi.

01.01.2024-cü il tarixdən qüvvəyə minən qanunvericiliyə əsasən isə mikro sahibkarlıq subyektlərinə gəlir (mənfəət) vergisi üzrə **75 faiz** həcmində güzəştin tətbiqi üçün:

- müvafiq il üzrə orta aylıq muzdlu işçi sayının 3 nəfərdən az olmaması;
- məcburi dövlət sosial sığorta haqları üzrə borcunun olmaması şərtləri müəyyən edilmiş və əmtəəsiz əməliyyatlar aparıldığı halda güzəştin əmtəəsiz əməliyyatlardan yaranan gəlirlərə münasibətdə tətbiq edilməməsi nəzərdə tutulmuşdur.